Xalq qəzeti.- 2023.- 16 iyul



Mirzə Babayev – 110

# Musiqi yaddaşımızın “Uzaq, yaşıl ada”sı

**Xalq artisti Mirzə Babayev Azərbaycan estrada musiqisinin, o cümlədən şanson janrının banilərindən biri olub. Unudulmaz sənətkar güclü artistizmi, oxuduğu hər mahnını kiçik bir tamaşaya çevirə bilməsi, özünəməxsus obrazlar yaratması ilə fərqlənirdi.**



Mirzə Babayevin yubileyi ərəfəsində onun nəvəsi, hazırda dövlət qulluğunda çalışan Emin Babayevlə ətraflı söhbətimiz oldu və sənətkar haqqında indiyə qədər bilmədiyimiz bir çox faktları öyrəndik.

**Emin bəy dedi ki, babası İçərişəhərdə doğulub və onun musiqiyə meyl göstərməsində anası Sona Xanlarovanın böyük rolu olub. Sona xanım rəfiqələrini evə qonaq çağırıb, onlar üçün qarmon çalarmış:** “Mirzə babam böyük səhnəyə çıxmazdan öncə, 30-cu illərin əvvəllərində memarlıq təhsili aldığı Sənaye İnstitutunun bədii kollektivində çıxış edirmiş. Natəvan meydanındakı köhnə "Metropol" restoranında da oxuyurmuş. Babam institutu bitirəndən sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə də daxil olub. Musiqi ilə ciddi məşğul olana qədər həm memar, həm də rəssam kimi çalışıb. Müharibədən sonra Bakıdakı "Vətən" kinoteatrı, Gəncədə, Ağdamda bir neçə inzibati bina onun layihəsi üzrə tikilib. Nizami muzeyinin salonlarının tərtibatında da iştirak edib”.

İkinci cahan savaşında Rostov cəbhəsində döyüşlərdə iştirak etmiş Mirzə Babayev müharibədən leytenant rütbəsi və orden-medallarla qayıdıb. İlk dəfə bəstəkar Tofiq Quliyevin yaratdığı caz orkestrində çıxışları haqqında isə sənətkar belə deyib: “Tofiq olmasaydı, həyatıma memar kimi davam edəcəkdim”.

Mirzə Babayev bir çox filmlərdə aktyor kimi çıxış edib, eyni zamanda, onun kino mahnısı ifaçılığı da əhatəli olub. Bəlkə də, əksəriyyət bilmir ki, “O olmasın, bu olsun” filmində Məşədi İbadın dilindən səslənən mahnıları “Mirzə dayı” oxuyub.

Sənətkarın nəvəsi tez-tez onun çəkildiyi filmlərə baxdığını bildirdi: “Babam rollarını o qədər canlı oynayıb ki, dediyi sözlər dillər əzbərinə çevrilib. Dərviş Məstəli şah (“Dərviş Parisi partladır”), Mirişin atası (“Bəyin oğurlanması”), Meyxanaçı (“Dəli Kür”), Bəy (“Qaraca qız”) ən məşhur rollarındandır. Dərvişin ekranda göründüyü ilk epizodda oxuduğu mahnı ssenaridə yox imiş, o mahnını Tofiq Quliyev həmin rola Mirzə Babayevin çəkiləcəyini biləndən sonra yazıb”.

İstedadlı vokalçı 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına, Bülbülün sinfinə qəbul edilib. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Mirzə Babayev "Liman", "Uzaq, yaşıl ada", "Kəpənək", "Gəlmədi" və digər mahnıların ilk və təkrarsız ifaçısıdır.

"Şöhrət" ordenli sənətkar həm də iki dəfə "Humay" mükafatı laureatı olub. Ümumilikdə, 40-dan çox filmə çəkilib. Özü də təkcə Azərbaycanda yox, Odessa, Daşkənd, Aşqabad kinostudiyalarında istehsal olunan filmlərdə də iştitak edib.

**Emin bəy babasının vokal imkanlarından bəhs edərkən bir maraqlı nüansa da toxundu:** “Müəllimi Bülbül onu opera müğənnisi kimi hazırlamaq istəyirmiş. Amma Tofiq Quliyev deyib ki, Mirzənin səsi estrada mahnılarının ifası üçün daha uyğundur. O, bir müddət Tofiq müəllimin Daxili İşlər Nazirliyinin nəzdində yaratdığı caz orkestrində çıxış edib. Babamın ilk estrada ifaçısı olması etiraf olunur, amma, nədənsə, caz ifaçılığından söz düşəndə adı az çəkilir. Halbuki Tofiq Quliyev həmişə musiqimizin bu mərhələsi haqqında danışanda onun adını vurğulayırdı”.

2000-ci ildə Amerikada Azərbaycan mədəniyyəti günlərində iştirak edən nümayəndə heyətinin tərkibində Mirzə Babayev də vardı. Azərbaycan müstəqillik qazanmasaydı, yəqin ki, bütün bunlar olmayacaqdı. Çünki sovet vaxtı babamın ifa tərzini, səhnə hərəkətlərini qəbul etməyənlər çox idi. Müğənnilərdən səhnədə statik olmağı tələb edirdilər. Başqa sözlə desək, dövlət müstəqilliyimiz həm də onun sənət və səhnə sərbəstliyinə yeni imkanlar açıb.

…Unudulmaz sənətkar Mirzə Babayevin səsi bu gün də qulaqlarımızda səslənir: “Kimlər gəldi, kimlər getdi bu dünyadan…”. İnamla deyə bilərik ki, o, bu dünyada ad qoyub gedənlərdən və indi “Uzaq, yaşıl ada” kimi yaddaşlarda qalanlardan biridir.

**Ə.ƏLİYEV,**
**“Xalq qəzeti”**